DÖVLƏT İMTAHAN MƏRKƏZİ
www.dim.gov.az | www.abiturient.az | www.mekteb.edu.az

ABİTURİYENT

XÜSUSİ BURAXILIŞ BAKI/2026

İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?

I

İXTİSAS QRUPUNUN ABİTURİYENTLƏRİ ÜÇÜN

ISSN 2223-9723

İmtahan nəticələrinizi DİM-in **www.dim.gov.az** internet səhifəsindən öyrənə bilərsiniz!

DİM-2026

REDAKSİYA ŞURASI

M.M.Abbaszadə, N.Ə.Babayev, K.R.Aydazadə, Ş.V.Bayramov, F.Ş.Bədəlbəyli, G.Ç.Gəraybəyli, B.B.Xəlilov, A.M.Paşayev, G.H.Məmmədova, V.R.Misirov.

REDAKSİYA HEYƏTİ

M.Ə.Bədəlov (baş redaktor), İ.M.Allahverdiyev, A.H.Bağırov, G.M.Balacanova, A.H.Batıyeva, N.N.Bayramova, V.O.Əkbərov, N.L.Əliyev, X.S.Əzimova, K.X.Hacıyeva, A.E.Həbibov, V.H.Həmidov, N.Z.Hüseynova, Ç.C.Xəlilov, P.K.Kazımov, A.Ə.Qasımov, S.S.Mərdanov, O.Y.Şelaginov, E.T.Şirinov, H.R.Zeynalov.

Jurnal Dövlət İmtahan Mərkəzinin
rəsmi materialları əsasında hazırlanmışdır.

Dil və üslub üzrə redaktor: Ç.İ.Rüstəmov.

Kompüter və dizayn: X.S.Mirzəyev, L.M.Ağayeva (məsul katib).

Redaksiyanın ünvanı:
Az1031, Bakı şəhəri, Davud Aslan küçəsi, 2A.

Telefon:
1653 (DİM-in çağrı mərkəzi).

Whatsapp:
(+99450) 225-54-99 (Redaksiya).

Elektron poçt: info@abiturient.az

Veb-sayt: www.abiturient.az

Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. (Lisenziya B 171, 18 fevral 1999).

© DİM - «Abituriyent»-2026

Dövlət İmtahan Mərkəzinin rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması **QADAĞANDIR!**

Çapa imzalanmışdır 10.08.2026.
Tiraj 1000.

Reklam materiallarının məzmununa görə redaksiya cavabdeh deyil.

DİM-2026

İxtisas seçimi zamanı
nələrə diqqət yetirməli?

Hörmətli abituriyentlər! Artıq seçdiyiniz ixtisas qrupu (qrupları) üzrə imtahan nəticələriniz Dövlət İmtahan Mərkəzinin (DİM) **www.dim.gov.az** internet saytında elan edilmişdir. Bundan sonra müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin qarşısında ixtisas seçimi etmək, onu dəqiqləşdirmək və təsdiqləmək (rəsmiləşdirmək) vəzifəsi durur. Bu məqamda düzgün, ağıllı qərar qəbul etmək, öz istəyi ilə bərabər mövcud müsabiqə vəziyyətinin reallıqlarını – ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasını, öz fərdi imtahan göstəricilərinin bu sıralamadakı yerini, həmçinin ötən illərin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə almaq seçimin uğurlu olmasına müsbət təsir göstərə bilər. Odur ki, sizin düzgün istiqamət götürməyinizə kömək üçün, öncə 2026/2027-ci tədris ili üçün respublika ali təhsil müəssisələrinin I ixtisas qrupuna Azərbaycan və rus bölmələri, hər iki bölmənin birgə müsabiqəsi üzrə tələbə qəbulu planı və dövlət sifarişi üzrə yerlərin sayı təqdim edilir (bax: cədvəl 1). **Dövlət sifarişi** ali təhsil müəssisələrində dövlət büdcəsi vəsaiti hesabına təhsil alması nəzərdə tutulan tələbələrin sayını göstərir. Dövlət sifarişinin yerinə yetirilməsində dövlət ali təhsil müəssisələri ilə bərabər özəl ali təhsil müəssisələri də iştirak edir. Dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla qəbul aparılmasından asılı olmayaraq qəbul planında yerlərin ümumi sayı göstərilib. Xatırladaq ki, hər bir ixtisas üzrə dövlət sifarişi əsasında ayrılmış yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin siyahısı və ayrı-ayrı ixtisasların ali məktəblər üzrə plan yerlərinin sayı, onların kodları,

DİM-2026

təhsil formaları (əyani, qiyabi) və təhsil haqqının məbləği "Abituriyent" jurnalının 2026-cı il 4-cü nömrəsində dərc olunub.

Cədvəl 1

Qəbul planı				Dövlət sifarişi
Azərbaycan bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
RK altqrupu üzrə				
8610	360	3740	12710	8905
Rİ altqrupu üzrə				
4040	315	3085	7440	6295
Bütövlükdə				
12650	675	6825	20150	15200

- Kompüter elmləri ixtisası üçün 60, Geologiya və geofizika mühəndisliyi ixtisası üçün 30, Kimya mühəndisliyi ixtisası üçün 40, Neft-qaz mühəndisliyi ixtisası üçün 30 və Kimya ixtisası üçün dövlət sifarişi üzrə ayrılmış 30 yerin müsabiqəsində Birgə Azərbaycan-Fransız Universitetinə (UFAZ) qəbul üçün sənəd vermiş abituriyentlər də iştirak edirlər.

İndi sizə ixtisas seçimində iştirak etmək üçün müəyyən edilmiş müsabiqə şərtləri barədə məlumatları təqdim edirik. Ancaq əvvəlcə abituriyentlər arasında bəzən düzgün anlaşılmayan bir məsələyə aydınlıq gətirmək istəyirik. Müsabiqədə iştirak etmək üçün tələb olunan minimal bal həddi ilə hər hansı ixtisasa keçid balı arasında fərq varmı, yoxsa bunlar eynidir? Əlbəttə, bunlar tamamilə fərqli anlayışlardır. **Müsabiqə şərti** Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla DİM tərəfindən bu və ya digər ixtisas qrupu, yaxud ixtisas üzrə müsabiqəyə buraxılmaq üçün qoyulan minimal tələbdir. Bu o deməkdir ki, hər bir qrup üzrə ixtisasların müsabiqəsində yalnız tələb olunan müsabiqə şərtlərini ödəmiş abituriyentlər iştirak edə bilərlər. Tutaq ki, cari ildə I ixtisas

DİM-2026

qrupunda imtahan verən hər hansı abituriyent qəbul imtahanın birinci mərhələsində 200 bal, ikinci mərhələsində isə 40 bal, cəmi 240 bal toplayıb. Göründüyü kimi, onun qəbul imtahanın ikinci mərhələsi üzrə balı 50-dən azdır. Bu halda mövcud müsabiqə şərtini yerinə yetirmədiyinə görə onun müsabiqədə iştirak etmək hüququ olmayacaq. **Keçid balı** isə müsabiqə aparıldıqdan sonra hər ixtisas üzrə ayrı-ayrılıqda formalaşan və müvafiq ixtisasa ən aşağı balla qəbul olan abituriyentin balına bərabər olan göstəricidir. Keçid balı müəyyən ixtisas üzrə müsabiqədə iştirak edən abituriyentlərin sayı, həmin ixtisas üzrə plan yerləri və abituriyentlərin imtahan nəticələrindən asılı olur. Fərz edək ki, hər hansı ixtisas üzrə qəbul planı 60 yerdən ibarətdir. Həmin ixtisası ərizəsində müsabiqə şərtlərini ödəmiş 250 nəfər göstərib. Bu zaman həmin 250 nəfərdən ən yüksək bal toplayan 60 abituriyent bu ixtisasa qəbul edilir və 60-cı abituriyentin balı həmin ixtisas üzrə formalaşmış keçid balı olur.

Müsabiqəyə (həm dövlət sifarişi əsasında/dövlət hesabına*, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılırlar.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- **"Riyaziyyat", "Fizika" və "Kompüter elmləri"** ixtisasları üzrə müsabiqəyə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır;
- **Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti, Bakı Ali Neft Məktəbi, Sumqayıt Dövlət Universiteti və Mingəçevir Dövlət Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;

* "Abituriyent" jurnalının 2026-cı il 4-cü nömrəsindəki ixtisaslar siyahısında "Təhsil haqqı" sütununda qarşısında "DH" qeyd olunmuş ixtisaslarda təhsil dövlət tərəfindən maliyyələşdirilir.

DİM-2026

- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında/dövlət hesabına ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:
  - Meliorasiya mühəndisliyi;
  - Texnologiya müəllimliyi;
  - Ekologiya mühəndisliyi;
  - Kompüter mühəndisliyi;
  - Qida mühəndisliyi;
  - Elektrik və elektronika mühəndisliyi;
  - İnformasiya texnologiyaları;
  - Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi;
  - Mexanika mühəndisliyi;
  - Radiotexnika və telekommunikasiya mühəndisliyi.
- Aşağıda qeyd olunan ixtisaslar üzrə həm dövlət sifarişi əsasında/dövlət hesabına, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edə bilərlər:
  - Aqromühəndislik;
  - Aqronomluq;
  - Balıqçılıq;
  - Meşəçilik;
  - Şərabçılıq;
  - Torpaqşünaslıq və aqrokimya;
  - Yerquruluşu və daşınmaz əmlakın kadastrı;
  - Zoomühəndislik.

DİM-2026

Əziz abituriyentlər, bilirik ki, sizi ötən illərin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid balları da maraqlandırır. Bu da təbiidir, çünki onlar ixtisas seçimi zamanı düzgün istiqamət götürməkdə sizin üçün oriyentir rolunu oynaya bilər. Yuxarıda qeyd etdiyimiz kimi, ayrı-ayrı ixtisaslar üzrə minimal keçid balları müvafiq ixtisası öz ərizəsində göstərən abituriyentlərin sayı, ixtisas üzrə plan yerləri və abituriyentlərin imtahan nəticələri əsasında formalaşır. Bu göstəricilərə əsasən hər il keçid ballarında müəyyən dəyişmə müşahidə olunsa da, oxşar, təkrarlanan meyillər, tendensiyalar da özünü göstərir. Odur ki, sizə 2025-ci ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları ilə tanış olmağı məsləhət görürük. Həmin ilin tələbə qəbulu müsabiqəsində ali təhsil müəssisələrinin ixtisasları üzrə formalaşmış keçid balları "Abituriyent" jurnalının 2026-cı il 2-ci nömrəsində təqdim olunub.

İmtahan nəticələrinə əsasən I ixtisas qrupunun RK altqrupu üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan 7662, ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan 12622 abituriyent müsabiqədə iştirak etmək hüququ əldə etmişdir. I ixtisas qrupunun Rİ altqrupu üzrə isə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan 8073, ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan 10999 abituriyent müsabiqədə iştirak etmək hüququ əldə etmişdir. Abituriyentlərin imtahan ballarının paylanması (bal intervalları üzrə) müvafiq olaraq RK altqrupu üzrə *cədvəl 2*, *cədvəl 3*, Rİ altqrupu üzrə *cədvəl 4* və *cədvəl 5*-də təqdim edilir:

DİM-2026

I ixtisas qrupunun RK altqrupunda müsabiqədə
iştirak etmək hüququ qazanmış
ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə
balı 100-dən az olmayan abituriyentlərin
imtahan ballarının paylanması

Cədvəl 2

Bal intervalları	Azərbaycan bölməsi üzrə		Rus bölməsi üzrə		Bütövlükdə	
	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı
690 - 700	4	4	0	0	4	4
680 - 690	6	10	1	1	7	11
670 - 680	13	23	2	3	15	26
660 - 670	20	43	3	6	23	49
650 - 660	22	65	1	7	23	72
640 - 650	24	89	6	13	30	102
630 - 640	37	126	3	16	40	142
620 - 630	34	160	10	26	44	186
610 - 620	39	199	6	32	45	231
600 - 610	42	241	9	41	51	282
590 - 600	38	279	7	48	45	327
580 - 590	39	318	4	52	43	370
570 - 580	45	363	6	58	51	421
560 - 570	72	435	5	63	77	498
550 - 560	50	485	12	75	62	560
540 - 550	88	573	7	82	95	655
530 - 540	78	651	14	96	92	747
520 - 530	63	714	7	103	70	817
510 - 520	79	793	9	112	88	905
500 - 510	96	889	8	120	104	1009
490 - 500	93	982	11	131	104	1113
480 - 490	90	1072	13	144	103	1216
470 - 480	114	1186	12	156	126	1342
460 - 470	121	1307	16	172	137	1479

DİM-2026

Cədvəl 2 (ardı)

Bal intervalları	Azərbaycan bölməsi üzrə		Rus bölməsi üzrə		Bütövlükdə	
	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı
450 - 460	128	1435	10	182	138	1617
440 - 450	140	1575	13	195	153	1770
430 - 440	148	1723	18	213	166	1936
420 - 430	148	1871	24	237	172	2108
410 - 420	153	2024	33	270	186	2294
400 - 410	182	2206	28	298	210	2504
390 - 400	171	2377	26	324	197	2701
380 - 390	194	2571	26	350	220	2921
370 - 380	195	2766	32	382	227	3148
360 - 370	214	2980	28	410	242	3390
350 - 360	246	3226	33	443	279	3669
340 - 350	234	3460	44	487	278	3947
330 - 340	256	3716	30	517	286	4233
320 - 330	255	3971	31	548	286	4519
310 - 320	300	4271	39	587	339	4858
300 - 310	317	4588	53	640	370	5228
290 - 300	313	4901	29	669	342	5570
280 - 290	321	5222	31	700	352	5922
270 - 280	331	5553	29	729	360	6282
260 - 270	299	5852	29	758	328	6610
250 - 260	281	6133	18	776	299	6909
240 - 250	240	6373	8	784	248	7157
230 - 240	208	6581	8	792	216	7373
220 - 230	125	6706	5	797	130	7503
210 - 220	97	6803	5	802	102	7605
200 - 210	56	6859	1	803	57	7662

Qeyd: *"Riyaziyyat", "Fizika" ixtisasları üzrə müsabiqədə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan az olmayan 6909 abituriyent iştirak edə bilər.*

DİM-2026

I ixtisas qrupunun RK altqrupunda müsabiqədə
iştirak etmək hüququ qazanmış
ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə
balı 50-dən az olmayan abituriyentlərin
imtahan ballarının paylanması

Cədvəl 3

Bal intervalları	Azərbaycan bölməsi üzrə		Rus bölməsi üzrə		Bütövlükdə	
	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı
690 - 700	4	4	0	0	4	4
680 - 690	6	10	1	1	7	11
670 - 680	13	23	2	3	15	26
660 - 670	20	43	3	6	23	49
650 - 660	22	65	1	7	23	72
640 - 650	24	89	6	13	30	102
630 - 640	37	126	3	16	40	142
620 - 630	34	160	10	26	44	186
610 - 620	39	199	6	32	45	231
600 - 610	42	241	9	41	51	282
590 - 600	38	279	7	48	45	327
580 - 590	39	318	4	52	43	370
570 - 580	45	363	6	58	51	421
560 - 570	72	435	5	63	77	498
550 - 560	50	485	12	75	62	560
540 - 550	88	573	7	82	95	655
530 - 540	78	651	14	96	92	747
520 - 530	63	714	7	103	70	817
510 - 520	79	793	9	112	88	905
500 - 510	96	889	8	120	104	1009
490 - 500	93	982	11	131	104	1113
480 - 490	90	1072	13	144	103	1216
470 - 480	114	1186	12	156	126	1342
460 - 470	121	1307	16	172	137	1479
450 - 460	128	1435	10	182	138	1617

DİM-2026

Cədvəl 3 (ardı)

Bal intervalları	Azərbaycan bölməsi üzrə		Rus bölməsi üzrə		Bütövlükdə	
	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı
440 - 450	140	1575	13	195	153	1770
430 - 440	148	1723	18	213	166	1936
420 - 430	148	1871	24	237	172	2108
410 - 420	153	2024	33	270	186	2294
400 - 410	182	2206	28	298	210	2504
390 - 400	171	2377	26	324	197	2701
380 - 390	194	2571	26	350	220	2921
370 - 380	195	2766	32	382	227	3148
360 - 370	215	2981	28	410	243	3391
350 - 360	246	3227	33	443	279	3670
340 - 350	235	3462	46	489	281	3951
330 - 340	257	3719	31	520	288	4239
320 - 330	258	3977	38	558	296	4535
310 - 320	309	4286	47	605	356	4891
300 - 310	333	4619	61	666	394	5285
290 - 300	349	4968	40	706	389	5674
280 - 290	374	5342	60	766	434	6108
270 - 280	404	5746	67	833	471	6579
260 - 270	389	6135	68	901	457	7036
250 - 260	442	6577	62	963	504	7540
240 - 250	437	7014	54	1017	491	8031
230 - 240	482	7496	42	1059	524	8555
220 - 230	491	7987	53	1112	544	9099
210 - 220	535	8522	60	1172	595	9694
200 - 210	523	9045	50	1222	573	10267
190 - 200	512	9557	47	1269	559	10826
180 - 190	524	10081	26	1295	550	11376
170 - 180	448	10529	39	1334	487	11863
160 - 170	409	10938	19	1353	428	12291
150 - 160	311	11249	20	1373	331	12622

DİM-2026

I ixtisas qrupunun Rİ altqrupunda müsabiqədə
iştirak etmək hüququ qazanmış
ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə
balı 100-dən az olmayan abituriyentlərin
imtahan ballarının paylanması

Cədvəl 4

Bal intervalları	Azərbaycan bölməsi üzrə		Rus bölməsi üzrə		Bütövlükdə	
	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı
690 - 700	5	5	0	0	5	5
680 - 690	20	25	0	0	20	25
670 - 680	32	57	3	3	35	60
660 - 670	41	98	1	4	42	102
650 - 660	63	161	5	9	68	170
640 - 650	54	215	6	15	60	230
630 - 640	60	275	4	19	64	294
620 - 630	88	363	5	24	93	387
610 - 620	73	436	9	33	82	469
600 - 610	95	531	5	38	100	569
590 - 600	88	619	5	43	93	662
580 - 590	91	710	11	54	102	764
570 - 580	119	829	13	67	132	896
560 - 570	116	945	6	73	122	1018
550 - 560	112	1057	5	78	117	1135
540 - 550	129	1186	9	87	138	1273
530 - 540	117	1303	15	102	132	1405
520 - 530	116	1419	12	114	128	1533
510 - 520	147	1566	12	126	159	1692
500 - 510	146	1712	11	137	157	1849
490 - 500	153	1865	12	149	165	2014
480 - 490	153	2018	9	158	162	2176
470 - 480	154	2172	18	176	172	2348
460 - 470	149	2321	14	190	163	2511

DİM-2026

Cədvəl 4 (ardı)

Bal intervalları	Azərbaycan bölməsi üzrə		Rus bölməsi üzrə		Bütövlükdə	
	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı
450 - 460	201	2522	16	206	217	2728
440 - 450	185	2707	23	229	208	2936
430 - 440	182	2889	18	247	200	3136
420 - 430	192	3081	18	265	210	3346
410 - 420	218	3299	27	292	245	3591
400 - 410	241	3540	21	313	262	3853
390 - 400	224	3764	27	340	251	4104
380 - 390	215	3979	34	374	249	4353
370 - 380	207	4186	30	404	237	4590
360 - 370	244	4430	38	442	282	4872
350 - 360	254	4684	38	480	292	5164
340 - 350	280	4964	22	502	302	5466
330 - 340	276	5240	46	548	322	5788
320 - 330	239	5479	27	575	266	6054
310 - 320	282	5761	34	609	316	6370
300 - 310	254	6015	26	635	280	6650
290 - 300	263	6278	20	655	283	6933
280 - 290	220	6498	12	667	232	7165
270 - 280	238	6736	12	679	250	7415
260 - 270	192	6928	9	688	201	7616
250 - 260	128	7056	7	695	135	7751
240 - 250	120	7176	4	699	124	7875
230 - 240	93	7269	3	702	96	7971
220 - 230	50	7319	3	705	53	8024
210 - 220	31	7350	0	705	31	8055
200 - 210	18	7368	0	705	18	8073

Qeyd: *"Kompüter elmləri" ixtisası üzrə müsabiqədə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan az olmayan 7751 abituriyent iştirak edə bilər.*

DİM-2026

I ixtisas qrupunun Rİ altqrupunda müsabiqədə
iştirak etmək hüququ qazanmış
ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə
balı 50-dən az olmayan abituriyentlərin
imtahan ballarının paylanması

Cədvəl 5

Bal intervalları	Azərbaycan bölməsi üzrə		Rus bölməsi üzrə		Bütövlükdə	
	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı
690 - 700	5	5	0	0	5	5
680 - 690	20	25	0	0	20	25
670 - 680	32	57	3	3	35	60
660 - 670	41	98	1	4	42	102
650 - 660	63	161	5	9	68	170
640 - 650	54	215	6	15	60	230
630 - 640	60	275	4	19	64	294
620 - 630	88	363	5	24	93	387
610 - 620	73	436	9	33	82	469
600 - 610	95	531	5	38	100	569
590 - 600	88	619	5	43	93	662
580 - 590	91	710	11	54	102	764
570 - 580	119	829	13	67	132	896
560 - 570	116	945	6	73	122	1018
550 - 560	112	1057	5	78	117	1135
540 - 550	129	1186	9	87	138	1273
530 - 540	117	1303	15	102	132	1405
520 - 530	116	1419	12	114	128	1533
510 - 520	147	1566	12	126	159	1692
500 - 510	146	1712	11	137	157	1849
490 - 500	153	1865	12	149	165	2014
480 - 490	153	2018	9	158	162	2176
470 - 480	154	2172	18	176	172	2348
460 - 470	149	2321	14	190	163	2511
450 - 460	201	2522	16	206	217	2728

DİM-2026

Cədvəl 5 (ardı)

Bal intervalları	Azərbaycan bölməsi üzrə		Rus bölməsi üzrə		Bütövlükdə	
	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı	Abituriyentlərin sayı	Abituriyentlərin cəmi sayı
440 - 450	185	2707	23	229	208	2936
430 - 440	182	2889	18	247	200	3136
420 - 430	192	3081	18	265	210	3346
410 - 420	218	3299	27	292	245	3591
400 - 410	241	3540	21	313	262	3853
390 - 400	224	3764	27	340	251	4104
380 - 390	215	3979	34	374	249	4353
370 - 380	208	4187	30	404	238	4591
360 - 370	244	4431	38	442	282	4873
350 - 360	255	4686	40	482	295	5168
340 - 350	283	4969	26	508	309	5477
330 - 340	286	5255	51	559	337	5814
320 - 330	247	5502	34	593	281	6095
310 - 320	295	5797	44	637	339	6434
300 - 310	278	6075	40	677	318	6752
290 - 300	308	6383	36	713	344	7096
280 - 290	268	6651	37	750	305	7401
270 - 280	336	6987	39	789	375	7776
260 - 270	301	7288	41	830	342	8118
250 - 260	272	7560	37	867	309	8427
240 - 250	278	7838	35	902	313	8740
230 - 240	292	8130	41	943	333	9073
220 - 230	266	8396	28	971	294	9367
210 - 220	305	8701	33	1004	338	9705
200 - 210	293	8994	11	1015	304	10009
190 - 200	237	9231	32	1047	269	10278
180 - 190	236	9467	13	1060	249	10527
170 - 180	191	9658	5	1065	196	10723
160 - 170	164	9822	13	1078	177	10900
150 - 160	92	9914	7	1085	99	10999

DİM-2026

I ixtisas qrupunun RK altqrupunda müsabiqədə iştirak etmək hüququ qazanmış ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlərin imtahan ballarının paylanmasını əks etdirən 2-ci cədvəldə qeyd olunmuş "Abituriyentlərin cəmi sayı" sütunundakı rəqəmlər, balları ən yüksək bal intervalından (690-700) başlayaraq cari bal intervalına qədər olan diapazonda yerləşən abituriyentlərin sayını göstərir. Bu diapazona cari bal intervalı da daxildir. Bəs, cari bal intervalı dedikdə nə nəzərdə tutulur? Fərz edək ki, Azərbaycan bölməsində abituriyent 643 bal toplayıb. Bu abituriyentin topladığı bal 640-650 intervalında yerləşir. Bu interval həmin abituriyent üçün cari bal intervalı hesab olunur. 2-ci cədvəldə Azərbaycan bölməsi üzrə 640-650 bal intervalında müsabiqədə iştirak edən abituriyentlərin sayı 24 nəfərdir. Bu halda 640-dan çox bal toplayaraq müsabiqədə iştirak edən abituriyentlərin sayını təyin etmək üçün balları 640-650, 650-660, 660-670, 670-680, 680-690 və 690-700 intervallarında yerləşən abituriyentlərin saylarını cəmləmək lazımdır: 24+22+20+13+6+4=89. 2-ci cədvəlin cari bal intervalına uyğun olan sətrində "Abituriyentlərin cəmi sayı" sütununda məhz həmin göstərici təqdim edilib.

I ixtisas qrupuna xüsusi qabiliyyət tələb edən ixtisaslar da daxildir. Bu ixtisaslar qəbul planında – ixtisaslar siyahısında bir ulduz (*) işarəsi ilə qeyd olunmuşdur. Bu ixtisaslarda qabiliyyət imtahanının nəticəsi məqbulla qiymətləndirilir.

Abituriyentin xüsusi qabiliyyət tələb edən ixtisasları seçmək və ərizəsində onların kodlarını qeyd etmək hüququ qazanması üçün onun test imtahanında topladığı ümumi balı və qabiliyyət imtahanındakı yekun nəticəsi DİM tərəfindən müəyyən edilmiş tələblərə (müsabiqə şərtlərinə) uyğun olmalıdır. 6-cı cədvəldə təhsili həm dövlət sifarişi üzrə, həm də ödənişli əsaslarla olan ixtisasların qabiliyyət imtahanı üzrə müsabiqə şərtləri təqdim edilir.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri

Cədvəl 6

İxtisasın adı	Minimal bal	II mərhələ üzrə minimal bal	Qabiliyyət imtahanının yekun nəticəsi
Memarlıq	200	-	məqbul (6 bal)

DİM-2026

I ixtisas qrupunda müvafiq Qabiliyyət İmtahan Komissiyasında qeydiyyatdan keçmiş və test imtahanının nəticəsinə görə müsabiqə şərtini yerinə yetirmiş, yəni tələb olunan minimal test balını toplamış abituriyentlərin nəzərinə çatdırılır ki, onlar müvafiq Qabiliyyət İmtahan Komissiyasında qabiliyyət imtahanı verməlidilər. Yalnız qabiliyyət imtahanını müvəffəqiyyətlə verən abituriyentlər ixtisas seçimi zamanı elektron ərizələrində müvafiq xüsusi qabiliyyət tələb edən ixtisasın kodunu göstərə bilərlər. Qabiliyyət imtahanından müvəffəqiyyətlə keçməyən abituriyentlər isə test imtahanının nəticəsinə görə müvafiq müsabiqə şərtlərini yerinə yetiriblərsə, I ixtisas qrupunun xüsusi qabiliyyət **tələb etməyən** ixtisaslarını seçib müsabiqədə iştirak edə bilərlər.

Abituriyentin həm test imtahanından topladığı ümumi balı, həm də qabiliyyət imtahanları üzrə yekun nəticəsi 6 saylı cədvəldə göstərilən tələbləri ödəyirsə, o, seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ümumi qaydada avqustun 12-dən 19-dək "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"ni doldurmalı və təsdiq etməlidir. Əks təqdirdə abituriyent müsabiqəyə buraxılmır.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanından çıxarışlar

● İxtisas seçmək hüququ olan abituriyent müsabiqə şərtini ödədiyi ixtisas qrupuna (qruplarına), o cümlədən altqrupuna (altqruplarına) aid olan 15-dək ixtisasın kodunu qeyd edə bilər.

● Dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla qəbul aparılmasından asılı olmayaraq ali təhsil müəssisələrinin ixtisaslarının siyahısında hər bir ixtisas üzrə ümumi plan yerləri təqdim edilmişdir (bax: "Abituriyent" jurnalı №4, səh. 12-41). Hər bir ixtisas üzrə dövlət sifarişi əsasında ayrılmış yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin siyahısı ayrıca cədvəldə verilmişdir (bax: "Abituriyent" jurnalı №4, səh. 42-47).

DİM-2026

● Abituriyent ixtisas seçərkən bu ixtisas üzrə dövlət sifarişi əsasında/dövlət hesabına və ya ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir. Hər hansı bir ixtisas üzrə həm dövlət sifarişi, həm də ödənişli əsaslarla olan yerlərin müsabiqəsində iştirak etmək istəyən abituriyent həmin ixtisasın kodunu ərizəyə iki dəfə daxil etməli və ayrılıqda bu ixtisas üzrə təhsilini dövlət sifarişi əsasında və ödənişli əsaslarla almaq istədiyini qeyd etməlidir. İxtisas kodlarını, onların sayını və ardıcıllığını abituriyent özü müəyyənləşdirir.

● Dövlət sifarişi üzrə/dövlət hesabına ayrılmış yerləri seçmək hüququ əldə etmək üçün DİM tərəfindən qoyulan tələbləri ödəyə bilməyən abituriyentlər yalnız ödənişli əsaslarla olan yerlərin müsabiqəsində iştirak edə bilərlər.

● Dövlət hesabına ali təhsil almış abituriyentlər dövlət sifarişi üzrə/dövlət hesabına ayrılmış yerləri seçə bilməzlər.

● Əcnəbilər (daimi yaşayış icazəsi olan əcnəbilər istisna olmaqla) və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi üzrə/dövlət hesabına ayrılmış yerləri seçə bilməzlər.

● İxtisas seçimi **bütün ixtisas qrupları üzrə avqustun 12-dən 19-dək internet vasitəsilə** aparılacaqdır. Müsabiqəyə yalnız həmin müddətdə ixtisasları seçib öz elektron ixtisas seçimi ərizələrinə daxil edərək təsdiq etmiş abituriyentlər buraxılacaq.

Hörmətli abituriyentlər!

İxtisas seçimi və "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulması qaydaları ilə tanış olmaq üçün sizə "Abituriyent" jurnalının 2026-cı il 4-cü nömrəsini diqqətlə oxumağı məsləhət görürük.


Sizə düzgün ixtisas seçimi və müsabiqədə uğurlar arzu edirik!

DİM-2026

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İXTİSASLARINI SEÇMƏK HÜQUQU QAZANMIŞ ABİTURİYENTLƏR ÜÇÜN

"Abituriyent" jurnalının 4-cü nömrəsində:

- ☑ 2026/2027-ci tədris ili üçün ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı
- ☑ Müsabiqə şərtləri
- ☑ "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası
- ☑ Qəbul aparılan ixtisaslar və onların plan yerləri
- ☑ Ali təhsil müəssisələrinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu



2025-ci il buraxılışı

İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?

Hörmətli abituriyentlər!

2025-ci il üzrə qəbul planını, bal intervalları üzrə abituriyentlərin paylanmasını builki məlumatlarla müqayisə aparmaqla cari ildə müsabiqə vəziyyəti haqqında təxmini fikir formalaşdıra bilərsiniz.


Nəşrlərin elektron versiyalarını (pdf formatda) **www.abiturient.az** saytından əldə etmək olar.

QR KODU SKAN ET



DİM-2026

Pərakəndə satış qiyməti
2 manatdan çox olmamalıdır



Dövlət İmtahan Mərkəzinin nəşrlərini
abiturient.az saytında əldə edə bilərsiniz.

1 abiturient.az saytında qeydiyyatdan keçərək hesab yaradın.

2 abiturient.az saytında hesabınıza daxil olun.

3 DİM nəşrlərini PDF formatda əldə etmək istəyirsinizsə,
seçdiyiniz nəşrin üzərində "PDF əlavə et" düyməsini klikləyərək səbətə əlavə edin. Səbətə daxil olaraq ödəniş edin. Ödəniş etdikdən sonra saytdakı hesabınızda "Ödənişlərim" bölümünə yüklənmiş PDF faylı istifadə edə bilərsiniz.

4 DİM nəşrlərini ünvana sifariş etmək istəyirsinizsə,
seçdiyiniz nəşrin üzərində "Onlayn sifariş" düyməsini klikləyərək səbətə əlavə edin. Səbətə daxil olaraq "Ödəniş et" düyməsini klikləyin. Sifarişin çatdırılacağı regionu seçib ünvanı qeyd edərək ödəniş edin. Ödəniş etdikdən sonra sifarişiniz 5 iş günü ərzində ünvana çatdırılacaq. Sifariş rayonlara çatdırılacaqsa, 1 və ya 2 gün ləngimə ola bilər. Hər bir nəşrin ünvana çatdırılma qiyməti 1.50 AZN-dir.

Wolt

Dövlət İmtahan Mərkəzinin nəşrlərini həm **abiturient.az** saytında, həm də **Wolt** tətbiqində sifariş etmək mümkündür.

Dövlət İmtahan Mərkəzinin nəşrləri barədə dəqiq və operativ məlumatı "Abituriyent" jurnalı redaksiyasının saytında və rəsmi sosial media hesablarında əldə edə bilərsiniz.

abiturient.az
abiturientaz
abiturientjurnal
abituriyent.jurnal
AbituriyentJurnal
abiturient_journal
+994 50 225 54 99

DİM-2026